İndi hər yetənə "ulduz" deyirlər. Kim ki, bir balaca tanındı, bir neçə dəfə televiziyaya çəkildi dərhal o adamı yazırlar "ulduz"ların siyahısına.



# HƏSƏN MƏMMƏDOV

## KİNOMUZUN HƏQİQİ ULDUZU

*Ucaldırlar, şöhrətləndirirlər və haradansa, kimlərsə tapılır ki, bu üzdəniraq "ulduz"ları maliyələşdirir, arxasında durur, hər cəhətdən onun qəyyumuna çevrilir. Bu "ulduz"da ev-eşik, şan-şöhrət sahibi olur, yerə-görə sığmır.*

Adətən savadsız, biliksiz və istedadsız olan bu "ulduz"lar burnundan o tərəfi görmür, özündən savayı heç kimi bəyənmir, xüsusi ilə əvvəlki sənətkarları "unudulmuşlar nəslinin nümayəndəsi" bilib, onların özlərinə, dünyasını dəyişmişlərin isə xatirəsini əziz tutmaq əvəzinə, bu insanların ardınca həqarətlə söylənirlər.

Unudurlar ki, "dalca danışmaq" ləyaqətdən uzaq, heç bir əxlaqi normalara sığmayan, insanlıq adına ləkə gətirən mənfi keyfiyyətdir. Təbii ki, bugünkü günümüzdə həqiqi sənət yangısı ilə yaşayan, ulu tanrının insana bəxş etdiyi istedad və fərdiliyi olan gənclərimiz də yox dərəcəsində deyil.

İncəsənətin bir çox sahələrində özünü hər cəhətdən mənəvi-əxlaqi dəyərlərimizə uyğun nümayiş etdirən, normal davranan, təvazökarlığı ilə seçilən cavanlarımız da var. Hansı şəraitdə olursa - olsun sözünün yerini bilən, böyüyə, ağsaqqala etiram göstərən, bununla da özündən yaşca böyüklərin xeyir-duasını alan, öz xoşbəxt gələcəyinə körpü atan istedadlı, tərbiyəli gənc nəslin nümayəndələrini də az görməmişəm...

Tanıdığım və şəxsiyyətinə bələd olduğum sənət adamlarından biri barədə söz açmaq istəyirəm...

Həsən Ağaməmməd oğlu Məmmədov 1938-ci il noyabr ayının 22-də Salyan rayonunda dünyaya göz açan Həsən orta məktəbi öz doğma torpağında bitirmiş, deyilənə görə fizika və riyaziyyata böyük marağı olduğu üçün Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakultəsinə qəbul olunmuşdur. Dərslərindən əla qiymətlər alan Həsən universitetdə oxuduğu zaman əldə etdiyi elmi biliklərə baxmayaraq, nə vaxtsa, gələcəkdə dəqiq elmlər üzrə sanballı mütəxəssis, alim ola biləcəyi halda, ürəyinin səsinə qulaq asmış, sənədəlrini geri alıb, Azərbaycan Teatr İnstitutunun aktyorluq fakultəsinə vermişdir. Nə idi buna səbəb, hansı hisslər, hansı nigarançılıqlar idi görəsən gənc Həsəni bu işə sövq edən?! Yəqin ki, o vaxt valideynləri, böyükləri, onu tənbeh edib, "Bu nə işdir görürsən, hazır gələcəyindən niyə imtina edirsən?!" - deyənləri də olub.

Mənə belə gəlir ki, əksər hallarda olduğu kimi Həsənin də bu hərəkətinin arxasında öz dərkinə, dünya duyumuna və ev tərbiyəsinə əsaslanmaq lazımdır. Bibisi oğlu - "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı Tahir Səmədov deyir ki, dörd qardaş, bir bacıdan ibarət olan bu çoxuşaqlı ailədən kim isə incəsənətə meyilli olmalı idi.

Digər qardaşlarından məhz bu hisslərlə seçilən Həsən o vaxt, riyaziyyat elminə dərindən bələd olandan sonra Sarvan kəndindəki Lenin ordenli kolxozun sədri, Sosialist Əməyi Qəhrəmanı, ölkə boyu tanınmış təsərrüfat başçısı olan dayısı Qüdrət Səmədovun, yanında çalışa bilərdi. Və ya Neft Daşlarında məsul bir vəzifədə çalışan böyük qardaşı Sabirin, uzaqbaşı Salyanda bazarın idarə heyətinin üzvlərindən biri olan atası - Ağaməmməd kişinin əlinin altında özünə isti bir bucaq tapa, istədiyi kimi dolana bilərdi. Nə gətirdi o incəsənətə, nə umurdu bu sahədən? Axı rahat həyat tərzi Həsən üçün ömürlük təminat yeri idi...

Bəs olduqca mürəkkəb bu sahəni heç bir təcrübəsi olmayan gənc Həsən niyə seçirdi, nəyə arxalanırdı aktyorluq sənətinə könül verəndə?! Bütün bu suallara dərindən cavab axtaranda başa düşdüm ki, həqiqətən ev tərbiyəsi, əxlaq normaları, millilik, xəlqilik anlayışları gətirib onu bu sahəyə. Bu sadaladığım dəyərlər formalaşdırıb Həsəni. Teatr İnstitutunu bitirdikdən sonra 10 il çalışdı Dövlət Dram Teatrında. Aktyor kimi müxtəlif rollar oynayıb, neçə-neçə obrazlar yaratsa da istədiyinə nail ola bilmir, sənət zirvələrini fəth edə bilmirdi...

Lakin 60-cı illərin Bakı kinostudiyasında istehsalata buraxılan "Böyük dayaq" filmində (rejissor - Həbib İsmayılov) Qaraş roluna dəvət alması və bu rola böyük sınaqlardan keçib, təsdiq olunması Həsənin sənət taleyində əsaslı yer tutdu. Öz dövrünün nəhəngləri olan Ələsgər Ələkbərov, Məmmədrza Şeyxzamanov, Firudin Mehtiyev, İbrahim İsfahanlı, Nəsibə Zeynalova, İsmayıl Dağıstanlı, Əli Qurbanov, L.Rzayeva kimi yaşlı nəslin nümayəndələri arasında özünəməxsus, səmimi oyunu ilə tamaşaçıların və kinorejissorların diqqətini çəkdi. Elə kinoda bu ilk işi ilə də tanındı və sevildi. 10 il ərzində biri-birində maraqlı, müxtəlif taleli insanların obrazını yaratdı Azərbaycan kinosunda. Özü də necə yaratdı bu gənc aktyor.

"Möcüzələr adası" filmində - **Nazim** (ssenari müəllifi və rejissor H.Seyidbəyli), "Kimi daha çox sevirik" novellasındakı "Zirvə" filmində - **Kamil** (rejissor A.Babayev), "Arşın mal alan"da - **Əsgər bəy** (rejissor - T.Tağızadə), "Yaşamaq gözəldir, qardaşım"da - **Ziya** (rejissor R.Əsgərov), "İstintaq davam edir"də - **Əzimov** (rejissor Ə.Atakişiyev), "Bir cənub şəhərində" - **Murad** (rejissor E.Quliyev), "Yeddi oğul istərəm"də - **Bəxtiyar** (rejissor T.Tağızadə), "Sevil" kino operasında - **Balaş** (rejissor V.Qorikker), "Axırıncı aşırım"da - **Abbasqulu bəy** (rejissor K.Rüstəmbəyov), "Dədə Qorqud"da - **Dədə Qorqud** (rejissor T.Tağızadə), "İstintaq"da - **Murad** (rejissor R.Ocaqov), "Səmt küləyi"ndə - **Əlibaba** (rejissor E.Quliyev), "Bakıda küləklər əsir"də - **Tahir** (rejissor M.Dadaşov), "Qatır Məmməd"də - **Səməd** (rejissor R.Ocaqov), "Sevinc buxtası"nda - **Baba Əliyev** (rejissor E.Quliyev), "Birisigün gecə yarısı"nda - **Əliyev** (rejissor A.Babayev), "İşarəni dənizdən gözləyin"də - **General** (rejissor C.Mirzəyev), "Bağ mövsümü"ndə - **Ağababa** ( rejissor T.Tağızadə), "Gün keçdi" də - **Oqtay** (rejissor A.Babayev), "Qəm pəncərəsi"də - **Məmmədhəsən** (rejissor Anar) və sairə bu kimi Azərbaycan kinolarında yaratdığı obrazlar milli kino tariximizdə çox əhəmiyyətli yer tutmağı ilə bərabər, sonrakı gənc aktyor nəsli üçün əyani tədrisə çevrildi. Öz səmimiyyəti və rəngarəng çalarlı ifa tərzləri ilə seçilən Həsən Məmmədov kinoaktyorluğu sahəsində əsl məktəbə çevrildi.



"Bağ mövsümü"

Həsənin xarici kinostudiyalardan aldığı dəvətlərə gəlincə, onu qeyd etmək lazımdır ki, filmdən - filmə, roldan - rola püxtələşən bu aktyor "Xaos" filmində - **Kazımbəy** (Ermənistan), "Tim Tayler və ya satılmış gülüş" - **Krişamizi**, "Müsahibə götürən adam" filmində - **jurnalist**, "Piter Pen" filmində - **Hinduların başçısı** (Belarusiya), "Vüsal günləri"ndə - **Aslan**, "Höüccətül İslam"da - **Miller** (İran), Tacikistanda lentə alınmış "Aşırımda atəş açmamalı" filmində şair - **Hafiz** kimi yadda qalan obrazlar yaratmışdır...

Böyük mədəniyyəti olan bu insan - H.Məmmədov həm də yaratdığı bütün obrazlarda yüksək emosional təsir gücünə malik idi. Təsadüfi deyil ki, onu Azərbaycan kinosunun Dədə Qorqudu adlandırırdılar. Onun Azərbaycan kinosuna gəlişi həqiqətən bir hadisə idi.

Azərbaycan kinosunun inkişafında Həsənin ayrıca payı var. O, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi, xalq artisti idi.

Həsən boy-buxunu, şux qaməti, kino sahəsindəki şan - şöhrəti ilə bərabər, olduqca sadə, səmimi və təmkinli bir insan idi. Elə kamera qarşısında da öz sadəliyini itirmirdi. Həyatda olduğu kimi ekranda da son dərəcə sadə və əxlaqlı idi. Bu keyfiyyətləri onu xalqına çox sevdirmişdi.

Mən kinostudiyanın aktyor şöbəsində onunla bir yerdə çalışırdım. Bir neçə filmdə tərəfmüqabili də olmuşuq. "Qəm pəncərəsi", "Bağ mövsümü", "Şahid qız", "İşarəni dənizdən gözləyin" və sairə...

Bu illər ərzində heç özünü öydüyünü görmədim. Əksinə hər söhbətdə üstünlüyü özgəsinə verməyə çalışardı. Sakit səslə daşışar, xırda - xırda gülərdi... Bir sözlə sənətdə ucaldıqca sadələşər, Tanrısı tərəfindən verilən hər nəyi vardısa, onu şükranlıqla qəbul edərdi...

Milli kinomuzun tarixində dərin iz qoymuş, sənətin çətin və ağır yollarında yorulmadan çalışan Həsən Məmmədov doğma xalqının əsil məhəbbətini qazanmaqla ekranımızın layiqli ulduzuna çevrilmişdi.

**Bu sözlərin arxasından inidiki cavan sənət adamlarımıza üz tutub, demək istəyirəm ki, ömrünün sonuna kimi, "Ulduz" olsa belə, bu sözü dilinə gətirməyən Həsən Məmmədovun həyat tərzindən ibrət götürüb yaşasınlar. İşığı heç vaxt öləziməyəcək böyük sənətkarlarımızın adını uca tutub, xidmətlərini həmişə yad edib, sonrakı nəsillər üçün qoyub getdiyi sənət məktəbindən bəhrələnməyi bacarsınlar...**

● **Ramiz ƏZİZBƏYLİ,**
*Xalq artisi, professor,*
*Azərbaycan Ağsaqqallar Şurası Mədəniyyət, İncəsənət və Turizm komissiyasının sədri*